# “Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli Qərarının icrasının təmin edilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

“Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli Qərarının tətbiqi ilə əlaqədar “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2013-cü il 23 dekabr tarixli 927 nömrəli əmri ilə təsdiq edilmiş “Tədris vəsaitlərinə nəşr hüququ (qrif) verilməsi Qaydalarının 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:
“1.3.Ümumi təhsil müəssisələri üçün nəzərdə tutulmuş dərsliklərə qrif verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası” ilə tənzimlənir.”.

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2004-cü il 1 noyabr tarixli 810 nömrəli və 2009-cu il 21 dekabr tarixli 1421 nömrəli əmrləri qüvvədən düşmüş hesab edilsin.

**3.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Tədris resursları şöbəsinə (E.Rüstəmov) tapşırılsın ki, bu əmrin icrasından irəli gələn məsələlərin həllini təmin etsin.

**4.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə (Vüsal Xanlarov) tapşırılsın ki, “Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası”nın 3.4-cü və 4.4-cü bəndlərinin icrasını təmin etmək məqsədilə müvafiq proqram təminatlarının 3 (üç) ay müddətində hazırlanmasını təmin etsin.

**5.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının İnformasiya şöbəsinə (E.Məmmədov) tapşırılsın ki, bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc edilməsini və Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya tapşırılsın.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*17 iyun 2020-ci il*

Azərbaycan müəllimi 2020.- 19 iyun.- S.3.